Əsli pəncərənin arxasından canlanan təbiət mənzərəsinə biganədir. Başını arxaya söykəyib, gözləri yumuludur. Ağzı azca açıqdır. Uşaqlığındakı kimidir. Səsi çıxmır, amma dərin yuxuya daldığını bilmək olur. Arabir başı qatarın hərəkətinə uyğun olaraq sağa-sola yırğalanır, titrəyir, amma vecinə deyil. Oyanana oxşamır. Düz qabağında bir qadın əyləşib. Əllərini qarşısında birləşdirib, başı azca yana dönüb; onun da gözləri yumuludur. Birlikdə səyahət etdiklərini ancaq bir az qabaq aradakı masanın üstündə əl-ələ tutduqlarını görənlər başa düşə bilər. Bundan başqa, bu iki qadının bir-birini tanıdığına dair heç bir işarə yoxdur. Əslinin ayağının yanında, böyük bir qutunun içində bir pişik yuxuya gedib. Sahibinin ayaqlarının yanında vəziyyətindən razı təsiri bağışlayır. Halbuki bundan iki ay əvvələ qədər nə bu pişik Əslini və yaşlı qadını, nə də qadınlar bir-birilərini tanıyırdılar. Dünyada bir-birindən xəbərsiz, amma bir-birinə ehtiyacı olan, Əsliyə bir məktub gələnə qədər yolları kəsişməyən bu iki qadın indi eyni qatarda rahatlıqla yuxuya gediblər. Pişik də baş verənlərdən payına düşəni götürüb, vəssalam. Bir az sonra vaqon tamamilə qaranlığa bürünür. Bu uzun tunelə girən kimi kitab və ya qəzet oxuyanlar əllərindəkiləri bir tərəfə qoyur, yuxuda olanların röyaları dərinləşir.

## 1

Boz, eninə yarıqları olan bir poçt qutusunun qabağında dayanıb. İçində uzun müddətdir gözlədiyi bir məktub var. Bunu zərfin uzun və ağ olmasından başa düşür. Başqa zərflər belə olmur. Telefon şirkətindən gələn mavi, televiziya şirkətindən gələn narıncı naxışlı olur, onsuz da bunlardan başqa bir şey gəlmir. Bunun gözlədiyi məktub olduğunu bilir. Hərəkətləri nə qədər sakitdir. Nə narahatlıq əlaməti göstərir, nə həyəcan. Düzü, adam yanında belə soyuqqanlı birinin olmasını arzulayır. Qaşı-gözü yerində, heç biri tərpənmir. Əlinə aldığı şey yeni il təbriki açıqçası olsaydı, ancaq bu qədər laqeyd davranardı. Əvvəlcə ən üstdəki yarıqdan çıxartmağa çalışır. Mənasız yerə barmaqlarının ətini sıyırır. Görür ki, çıxarda bilməyəcək, açarla açır. Elə orada cırıb nə yazıldığını oxumur. Daha sözüm yoxdur! Az qala deyəcəyəm ki, ona maraqlı gəlmir. Amma bilirəm, gəlir. İstədiyi qədər laqeyd görünsün, əslində, belə deyil.

Beləliklə, bir az sonra evə girəcək. Əyin-başını soyunub kresloda əyləşəcək. Yenə yavaş-yavaş zərfin ucunu qopardıb içindəki üç qatlanmış kağızı çıxardacaq, oxuyacaq. Sonra bir daha oxuyacaq. Ağlamağa başlayacaq. Göz yaşlarını barmaqlarının ucu ilə silib ayağa qalxacaq, çantasından telefonu çıxardıb anasının nömrəsini tapacaq, ona zəng edəcək, səsi titrəyərək: "Ana", – deyəcək. Cahan xanım elə pis olacaq ki... Qızının ümidinin boşa çıxdığını, proqrama qəbul edilmədiyini fikirləşəcək. Digər tərəfdən, həm də təəccüblənəcək. Əsli belə şeylərə görə kədərlənən adam deyil, çiynini çəkib keçər; amma son vaxtlar

ona nəsə olub. Çox sakitdir, üzü gülmür, yuxusu pozulub. Elə ağlına gələn təsəlliverici sözləri ard-arda deməyə hazırlaşarkən Əsli, Avstriyadakı yazıçı proqramına qəbul edildiyini deyəcək.

– Aaaa! Təbrik edirəm, Əslim. Hə, bəs niyə ağlayırsan?

Əsli dərhal yanındakı mizin üstündəki fotoşəkilə baxacaq. Yaşlı qadınla qucaqlaşıblar. Əsli qadını arxadan qucaqlayıb, yanağını yanağına söykəyib. Qadın da ikiəlli onun boynuna dolanmış qolundan yapışıb. İkisinin də üzündə dünyanın ən səmimi, ən isti gülüşü. Bir-birinə bənzəyən bu iki qadının bir-birini sevdiyini, çox, özü də lap çox sevdiyini başa düşmək üçün bundan başqa bir ana ehtiyac yoxdur. Anası az qala Əslinin o anda şəkilə baxdığını görmüş kimi:

– Amma belə etmə, gözəl qızım, əminəm ki, nənən belə ağlamağına hirslənərdi. "Ağlamaq olmaz, gülmək lazımdır!" – deyərdi. Elə deyilmi? – deyəcək.

Görünür, Cahan xanım qızının evində nəyin harada olduğunu yaxşı bilir. Ya da, bəlkə, həmin şəkildəki qadın öz anası olduğuna görə həmin çərçivənin harada olduğundan xəbərdardır.

– Kaş bu xəbəri ona da verə biləydim, buna pis oluram. Nənəm gedəndən bəri mənim üçün gülmək yoxdur, ağlamaq var.

Cahan xanım qızından bu qədər açıq etiraf eşitdiyindən təəccüblənib. Kaş Əsli o anda anasının necə heyrətləndiyini görəydi. Qadın az qala balaca dilini udacaq. Bundan qabaq qızının bir şeyə görə kədərləndiyini bilmədiyi kimi, hər hansı hissini açıq dilə gətirdiyini də görməyib. Qızının bu vəziyyəti

ilə yaxından maraqlanmalıdır, amma təəssüf ki, işdən-gücdən imkan olmur; onun günahı yoxdur. Vəziyyət belədir. O anda adının elan edildiyini eşidəcək.

– Əslim, mən indi dəstəyi qoymağa məcburam. Doğuşa girəcəyəm. Axşam gəl, həm ətraflı danışaq, həm də yemək yeyək. Açarın var, hə? Dəyişəndən sonra düzəltdirmişdin?

Dəstəyin o biri ucundan anasının adının çəkildiyini görən Əsli:

– Gələrəm, – deyib söhbəti kəsəcək.

Axşam daha bu mövzuya qayıtmayacaqlar. Əsli bir daha kədərindən dəm vuran deyil. Onsuz da kədərinin əsas səbəbi onun hiss etdiklərinə diqqət yetirən yeganə insanın getməsidirsə, başqa adamla dərdini bölüşməyin nə mənası var? Ana-ata kimi Cahan xanımla Cahan bəy yola verərlər. Evlərində belə axmaq bir vəziyyət hökm sürür. İkisinin də adı Cahandır. Adları eyni, işləri eyni, xasiyyətləri eyni. Sağ olsunlar, onu həyata gətiriblər, bir-iki ay Cahan xanım əmizdirib, qayğısına qalıb, Cahan bəy uşaq diliylə başını qatıb, amma sonra sağ qalmasının, xoşbəxt insan kimi yaşamasının yeganə səbəbi nənəsidir. Cahan xanım hamilə qalanda ikisi də assistent idilər. Nə edəydilər? İşə qayıtmayaydılar? Cahan xanım neçə illik təhsili zibilliyə ataydı? Özü olsaydı, elə edərdimi? Əsli anasına haqq qazandırır. Bir gün də olsun, qınamır. Şəraitin tələb etdiyi kimi hərəkət ediblər, vəssalam. Anası xəstəxanaya qayıtmış, atası ixtisaslaşmaq üçün yorulmadan çalışmış, nənəsi onlara köçmüş, nəvəsinə göz bəbəyi kimi baxmışdı. Az-çox hamının evində baş verən şeylər. Uşaqlığından bəri eyni vəziyyətdir. Elə nəsə danışmaq istəyəndə Cahan xanım getməli olurdu. Əslinin hərarəti olsa da, amma xəstəxanada ondan ağır vəziyyətdə olan adamlar gözləyirdi.

– Hə, Əsli? – deyə soruşurdular. – Başa düşürsən, hə? Sən ağıllı qızsan.

Əlbəttə, başa düşürdü. Başa düşməməli nə vardı? Yerdən göyə qədər haqlı idilər. O: “Mənə nə, onlar ölsünlər, siz mənim yanımda dayanın”, – deyəsi uşaq deyildi. Nə elə uşaq deyildi, nə də indi: “Dayan, dəstəyi qoyma, o təcili doğuşa da girmə, bir az da danışaq”, – deyəcək qadın deyil. Bir sözlə, axşam bir daha bu mövzulara qayıtmayacaqlar. Birdən həqiqətən evə vaxtında gələ bilsələr, ana-atasıyla Allah verəndən yeyəcəklər, mümkün qədər Avstriyaya getməyin detalları ilə bağlı danışacaqlar. Əsas pul barədə danışmalıdırlar. Sadəcə, nə qədər pula ehtiyacı olduğunu, ola biləcəyini danışacaqlar. Yoxsa aralarında pul söhbəti olan deyil. Əsli çətinliyə düşən kimi – o, bir yazıçıdır, həmişə çətinliyə düşür, – artıq pul istəyir, valideynləri də: “Amma belə olmaz axı!” – demədən ehtiyacı olan qədər verirlər. Onsuz da hesabına vaxtı-vaxtında müəyyən miqdarda pul köçürülür, Əsli qətiyyən narazılıq etmir. Bir vaxtlar Virciniya Vulfun məşhur: “Hər qadının bir otağa ehtiyacı var. Pulu olmayan qadın yazıçı ola bilməz” – sözlərini atasından eşitmiş və o gün-bu gündür aralarında belə bir razılaşma hökm sürür. Qətiyyən yanlış başa düşülməsin; bu, Əslinin “Madam ki, mənimlə heç maraqlanmayıblar, ən azından pul baxımından qayğıma qalmalıdırlar” kimi tərsliyi də deyil. Yenə şərait. Bu ailədə hamı məntiqin tələblərinə uyğun davranmağa vərdiş edib. Dərindən təhlil etmək, nəzərdən keçirmək yoxdur. Hərə öz cızdığı istiqamətdə gedir. Buna görə heç mən də məsələnin dərinliyinə getməyəcəyəm, Əslinin uşaqlığı ilə əlləşmək niyyətində deyiləm; sadəcə, hazırda baş verənlərdən danışacağam. Həmin məktub gələndən sonra baş verənlərdən.

## 2

Elanda "su qiymətinə ev" yazılıb. Ya da ona bənzər bir şey. Almanca necə deyilirsə, elə. Əsli çox sevdiyi kafedə oturub, internet saytındakı ev elanlarına baxır. Pulunu proqram ödəsə də, şübhəsiz, kirayə nə qədər ucuz olsa, o qədər yaxşıdır. Artığı özünə qalar. Beləcə, valideynlərindən alacağı xərclik də azalar. Məqsədi ömrünün axırına qədər başqalarının hesabına yaşamaq deyil, öz ayaqları üstündə dayanana qədər kömək almaqdır ki, əslində, bunun reallaşacağına qəti inanmır. Bir neçə dəfə dəvət edildiyi müsahibələrdə: "Seçə bilsəydim, başqa bir peşə seçərdim…" – dediyi hallar da olub. Kim bilir, neçə dəfə fikirləşib ki, kaş həkim olaydım. Adam bu genlərlə burnu qanayan görəndə necə huşunu itirib yıxıla bilər? Deməli, belə də olur. Qan görməyə dözümü yoxdur. İynə vurmağı öyrənib. Xoşu gəlməməklə yanaşı, bəzən nənəsinin işinə yaradığına görə bu işi yoluna qoyduğuna sevinir.

Yaxşı, lap valideynlərinin peşəsini seçmədi, biznes idarəçiliyi oxusaydı, pis olardı? Heç olmazdı. Bəzən özünü bank işçisi kimi təsəvvürünə gətirir. Necə gözəldir. Müntəzəm işdir. Get-gəl, ayın axırında maaşın yüklənsin, heç kim tərəfindən bəyənilməyə, təsdiqlənməyə ehtiyacın olmasın. İşini məsuliyyətlə yerinə yetir, vəssalam. Hər banka gedəndə şüşənin arxasında oturub işləyənlərə necə qibtə edir! İstəyir, növbə kağızında 655 yazılsın, fərqi yoxdur, işləyənlərə tamaşa etməkdən doymur. Təqaüdçülər kimi, onlara tamaşa etməkdən başqa işi yoxdur. Bir yandan pul sayır, bir yandan da gələn müştərilərlə söhbət